# Hamının sevimlisi



“Tarixdə və əbədiyyətdə heç nə öz rolunu ikinci dəfə oynamır. İnsan da dünyaya bir kərə gəlir. Gəlir ki, şərəfli və dəyərli bir ömür yaşasın. Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, xalqa xidmətləri ilə yaddaşlarda qalsın. Belələrinin yaşadıqları illər bitib-tükənmir, əməlləri, xeyirxah işləri daim anılır. Onların nəcibləşən ömürləri nəsillərə örnək, nümunə olur”. Bu fikri tanınmış göz həkimi, professor, sağlığında bir sıra məsul vəzifələrdə çalışmış və gözəl ziyalı Zəhra xanım Quliyeva haqqındakı kitabımın girişində yazmışdım. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova haqqında yazıya başlayanda da məhz həmin sözləri xatırladım.

Ömrünü xalqının sağlamlığına və rifahına həsr etmiş, artıq dünyasını dəyişmiş Zəhra xanım və bu gün işi, fəaliyyəti ilə sevilən, seçilən Cəmilə xanım arasında bu bağlılıq fikrimə təsadüfən gəlməyib. Həm də bu bağlılığı təkcə onların bir-birinə doğmalığında, ana-övlad olmalarında deyil, həm də həyata baxışlarında, əqidə və amallarında, xalqa, insanlara sevgisində, sədaqətlə xidmət etməsində görürəm. Maraqlıdır ki, Cəmilə xanımdan özü barədə danışmağı xahiş edəndə söhbətinə mənim düşüncələrimdən xəbərsiz məhz yuxarıda dediyim fikirlərdən biri ilə başladı: “İnsan həyatda bir dəfə yaşayır”. Bu sözlərin şərhə ehtiyacı yoxdur. Çünki ən çətini insanın özünün bu həyatın ona tək bircə dəfə verilməsini dərk etməsidir. Dərk etdisə, deməli, onu layiqincə, şərəflə yaşamağa çalışacaq. İmkanı, gücü, biliyi çatdığı qədər insanlara gərək olacaq, xeyirxah işlər görəcək və bütün bunlar ona zövq və məmnunluq gətirəcək. Bir sözlə, xoş əməllərlə yaşayacaq və xoş əməllər də eyni zamanda onun özünü yaşadacaq”.

Bunların hamısı Cəmilə Səttarovanın şəxsiyyətində var. Onu çoxdan tanıyıram. Xasiyyətinə də, insanpərvərliyinə, vətəndaş mövqeyinə də, ona tapşırılan vəzifəyə məsuliyyətinə də yaxından bələdəm. Əvvəlcə Cəmilə xanımı görkəmli alimimizin övladı kimi tanısam da, sonralar MİHİ Respublika Komitəsinin işində redaksiyamızı təmsil etdiyim üçün ona daha yaxından bələd oldum.

Hamı kimi, yeniyetməlik və gənclik illərində Cəmilə xanım da həyatdan çox şey gözləyirdi. Amma ömrün keşməkeşli, xoş-sərt yolları çox olur. Həyat hər bir insanı sınağa çəkir, çətinliklərdən çıxarır, ona saysız-hesabsız sevincli və kədərli anlar bəxş edir. Bu ömür yollarında Cəmilə xanıma bəzən elə gəlib ki, onun istədiyi alınmayıb, nə isə başqa cür də ola bilərdi. Amma indi illərin arxasından geriyə boylananda yaşadığı illər və olaylar üçün heç bir peşimançılıq çəkmir, özünün etdiklərində və ona insanlar tərəfindən edilənlərdə pis heç nə görə bilmir. Bununla belə, hər bir insanın həyatında xüsusilə unudulmaz günlər olur. Cəmilə xanım üçün bunlar hansı günlərdir, onları necə yaşayıb?

Deyir ki, arxaya baxanda bəzən ayrı-ayrı günləri deyil, ömrünün müəyyən dövrləri yadına düşür. Məsələn, uşaqlığı. Çiçəkləyən ərik ağacını görəndə mütləq uşaqlığını xatırlayır. Babasının Bakı ətrafındakı bağı gözü önünə gəlir. Sanki o çiçəklərin ətri uşaqlığının təcəssümünə çevrilir.

Birinci sinfə getdiyi gün necə sevindiyi hələ də yadındadır. Ömründə ilk dəfə kitab oxuyub başa çatdıranda özü üçün bir dünya açdığını söyləyir. Təbii ki, ana olduğu, ilk övladı olan qızının dünyaya gəldiyi gün də ömrünün ən unudulmaz anlarından biridir.

Cəmilə xanımın xarakterinə ətrafındakı insanlarla yalnız sevincini bölmək xasdır. O, kədərini gizlətməyi, daha doğrusu, dərdini özü yaşamağı üstün tutur ki, başqalarına mənfi ovqat verməsin. Odur ki, 10-11 yaşında olarkən itirdiyi atasını necə sevdiyini, itkinin ona necə acılar yaşatdığını, hər dəfə dəfn gününü xatırlayanda nələr keçirdiyini heç kəsə danışmır. Atası Məmmədağa Səttarov ziyalı insan, yaxşı mütəxəssis olub. Ömrünün son illərində “Hiproazneft” Elmi-Tədqiqat İnstitutunda baş mütəxəssis vəzifəsində çalışıb. Yeganə qızına böyük ata sevgisi ilə bağlanıbmış. Cəmilənin atalı günlərinin ömrü çox az olsa da, atasının onun tərbiyəsində, mənəvi dünyasında silinməz izlər qoyduğunu, ona cəsarət, qətiyyət verdiyini söyləyir.

Cəmilə ailədə sevimli övlad olub, həm valideynləri, həm də yaxın qohumları onu çox istəyiblər. Ad günlərində doğmaları həmişə onlara yığışarmış.

Cəmilə xanım deyir ki, onların ailəsində uşaqların ad günü qonaqlıq etmək, hədiyyə almaq anlayışlarından uzaq olaraq daha önəmli bir məna daşıyırdı. Bu, uşağı saymaq, sevindirmək, onu özünə bərabər bilmək, indidən şəxsiyyət hesab etmək demək idi. Bəlkə buna görə də Cəmilə xanımın qəlbində və xarakterində ad günləri belə dəyərli yer alaraq qalıb. İndi o, rəhbərlik etdiyi komitədə və onun təşkilatlarında çalışan həmkarlarının ad günlərində, yubileylərində onları diqqətdən kənarda qoymamağı, təbrik etməyi, bu günləri hər hansı bir kiçik də olsa hədiyyə ilə, sürprizlə qeyd etməyi ənənəyə çevirib.

Bəlkə bu da yaxşı rəhbər olmağın bir ünsürü, bir əlamətidir. Yeri gəlmişkən, Cəmilə Səttarova yaxşı rəhbər olmaq təcrübəsini də keçdiyi həyat yolunda biliyi, iradəsi və zəhməti ilə qazanıb.

1953-1960-cı illərdə paralel olaraq Bakıdakı 189 nömrəli ümumtəhsil məktəbində və 2 nömrəli uşaq musiqi məktəbində təhsil alıb. 1960-cı ildə Bülbül adına orta ixtisas musiqi məktəbinə daxil olub. Buranı bitirdiyi 1964-cü ildə isə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına qəbul olunub. Gözəl pianoçudur.

Əmək fəaliyyətinə 1969-cu ildə Bakı şəhəri 6 nömrəli uşaq musiqi məktəbində müəllim kimi başlayıb. Burada 6 il müəllimlik etdikdən sonra 5 il dərs hissəsi üzrə direktor müavini və daha 5 il direktor işləyib.

Deyirlər, hər təsadüf zərurətdən doğur. Heç vaxt heç bir tədbirə gecikməyən Cəmilə xanım Azərbaycan Dövlət Filarmoniyasına tədbir başlamamışdan bir neçə dəqiqə gec gəlib çatır. Foyedə o vaxt Azərbaycan Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışan Lidiya Rəsulova ilə rastlaşıb salamlaşırlar.

- Mən Lidiya xanımı onun anamla olan ünsiyyətindən tanıyırdım. Amma onunla heç vaxt yaxından söhbət etməmişdim. Biz filarmoniyanın foyesində tədbir keçirilən zala çatanadək birgə addımladıq. Mən bu sükutu “doldurmaq” üçün Lidiya xanıma olan rəğbətimi bildirdim, onun iş üslubunu bəyəndiyimi söylədim...

Çox keçmədi ki, heç gözləmədiyim halda Lidiya xanım məni öz iş yerinə çağırdı. Doğrusu, həyəcanlandım, çünki məktəb direktoru idim, düşündüm ki, bəlkə haradasa işə, işçilərə münasibətdə bir səhvə yol vermişəm. Demə, Rəsulova mənə həmkarlar xətti ilə vəzifə təklif etməyə çağırıb.

Cəmilə xanım etiraz edir. Həm ona görə ki, özünün sevdiyi işi-peşəsi vardı, həm də iki körpənin anası idi, oğlu lap kiçik idi.

Lakin təklif ciddi olduğu üçün əvvəlcə evdə həyat yoldaşı Ruhulla müəllimlə məsləhətləşir. O da bildirir ki, Cəmilə bu təklifi sözsüz qəbul etməlidir.

Elə həmin axşam Cəmilə xanım ata ocağına üz tutub anası Zəhra xanımın da fikrini bilmək istəyir. Zəhra xanım qızının təzə işə keçməsini dəstəkləyir və onun tapşırılan vəzifənin öhdəsindən gələcəyinə inamlı olduğunu söyləyir.

Beləcə, Cəmilə Səttarova 15 ilə yaxın bir müddətdə - 1985-ci il dekabrın 5-dən 2000-ci il fevralın 15-dək Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini kimi üzərinə düşən bütün vəzifələri layiqincə və məsuliyyətlə yerinə yetirir. 2000-ci ilin əvvəlindən isə komitənin sədri kimi fəaliyyət göstərir.

Cəmilə Səttarovanın rəhbərlik etdiyi komitənin işi geniş, çoxşaxəli və məsuliyyətlidir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, komitənin üzvü olan təşkilatların sayı 752-yə çatıb. Komitənin işinə plenumların, rəyasət heyətinin iclaslarının, səyyar iclasların, seminarların, müşavirələrin, yığıncaqların və digər tədbirlərin keçirilməsi daxildir. Komitənin şöbələri xidmətdə olan təşkilatlara yazılı hesabatların düzgün tərtib edilməsi, iş planının dolğun olması və digər tədbirlərin əks etdirilməsi barədə tövsiyələr verir. Artıq bir neçə ildir şöbələr tərəfindən ilk təşkilatların hesabatlarının ildə iki dəfə qəbulu həyata keçirilir. Şəhər, rayon və ilk həmkarlar ittifaqı komitələri tərəfindən bağlanılmış ərazi sazişlərinin və kollektiv müqavilələrin təhlili aparılır və qeydiyyata götürülür. Əmək Məcəlləsinin tələblərinə riayət olunması, fərdi əmək müqavilələrinin bağlanılması, onlara xitam verilməsi, sosial və əmək məzuniyyətlərinin düzgün təyini və digər məsələlərlə bağlı hesabatlar qəbul edilərək müvafiq metodiki kömək göstərilir.

Bütün bu işlərə Cəmilə xanım bilavasitə nəzarət və rəhbərlik edir. Təkcə keçən il komitə və onun üzv təşkilatları yerlərdə əmək qanunvericiliyinə necə əməl edilməsi ilə bağlı 22 dəfə yoxlamalar aparıb və aşkar edilən nöqsanların aradan qaldırılması üçün ardıcıl tədbirlər görülüb. İşə bərpa, işlə təmin olunma, şikayət və müraciətlərlə bağlı daxil olmuş məktub müəlliflərinə tövsiyələr verilib və kömək göstərilib. Əməyin mühafizəsi və sağlamlığın qorunması üzrə işlərin təşkili, müəssisə və təşkilatlarda əməyin mühafizəsi üzrə ictimai müvəkkillərin təyin edilməsi, işçilərin ümumi dispanserizasiyadan keçirilməsi, onların həyatlarının sığortalanması məsələlərinə aid tövsiyələrin və təlimatların verilməsi də bu komitənin fəaliyyəti dairəsindədir.

Təsadüfi deyil ki, buraya tez-tez təşkilatlardan zəhmətkeşlərin hüquqları, istirahəti, maddi yardım, əmək fəaliyyəti, səhhəti və digər məsələlərlə bağlı ərizələr daxil olur. Cəmilə xanım başçılıq etdiyi kollektivlə birgə bütün bu məsələlərə həssaslıqla yanaşır və onların müsbət həllinə çalışır.

Komitənin işinin digər istiqamətlər “Gender bərabərliyi və qadın problemləri”, “Gənclərlə iş”, “Fərdi əmək mübahisələri” , “Əməyin mühafizəsi və texniki təhlükəsizlik” məsələlərinin həll edilməsidir. Qurumun əməkdaşları tərəfindən bunlara nəzarətin gücləndirilməsi yolları izah edilir və konkret işlər görülür. “Ən yaxşı şəhər və rayon həmkarlar ittifaqı komitəsi”, “İlin ən fəal mədəni-maarif müəssisəsi və mədəni-maarif işçisi” kimi müsabiqələrin keçirilməsi ilə də komitədə yaxşı ənənə yaranıb.

Cəmilə xanımın özü Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Gender bərabərliyi və qadın problemləri üzrə Mərkəzin sədridir. Bu da təsadüfi deyil. Çünki gender bərabərliyi ona yaxın və doğma mövzudur. Ən azından ondan ötrü ki, rəhbərlik etdiyi MİHİ Respublika Komitəsi üzvlərinin sayının 79 faizi qadınlardır. Yeri gəlmişkən qeyd edək ki, gender məsələsinə Cəmilə xanımın öz baxışı var. Onun fikrincə, Qərbdə gender bərabərliyinə primitiv baxış mövcuddur. Əslində isə bu məsələyə tarazlaşdırılmış münasibət bəslənməlidir. Hər tərəfin - qadının da, kişinin də həyatdakı rolu, vəzifəsi layiqincə dəyərləndirilməlidir. Qadın anadır, insana həyat, nəfəs verəndir, tərbiyəçidir. Kişinin də öz vəzifəsi var - dünya onun çiyni üzərində dayanır.

Mərkəzin işində gender bərabərliyinə və qadın problemlərinə geniş yanaşma var, qadınların həyatının bütün sahələri əhatə olunur. Burada adət-ənənələrin təbliği, qadın əməyinin təhlükəsizliyi, erkən nikahlar, uşaq əməyi, insan alveri, qadınlara qarşı zorakılıq və onlarca digər məsələ gündəmdədir.

Mərkəz 10 ildir ki, bu istiqamətdə fəaliyyətini davam etdirir. İndiyədək bu qurum yüzlərlə seminar, “dəyirmi masa” və digər tədbir keçirib. Bu tədbirlərdə minlərlə insan iştirak edib. Əgər seminarda, yaxud “dəyirmi masa”da mərkəzin sədri Səttarova iştirak edirsə, deməli, tədbir daha maraqlı keçəcək...

Cəmilə Səttarova əsl ziyalı xanımdır. Bu ziyalılıq onu vəzifə kürsüsündə də, iştirak etdiyi çoxsaylı tədbirlərdə də, insanlarla münasibətində, hətta deyərdim ki, onlarla ən qısa dialoqlarında da müşayiət edir. Onun bütün fəaliyyətində başlıca məramlardan biri də qızlarımızın, qadınlarımızın hamısını məhz bu cür görməkdir. Odur ki, çiyin-çiyinə çalışdığı, ünsiyyətdə olduğu, dostluq etdiyi digər ziyalı qadınlara bu yüksək keyfiyyəti - ziyalılığı qız-gəlinlərimizin hamısı ilə paylaşmağı tövsiyə edir.

Tutduğu rəsmi və ictimai vəzifələrin hər birində işinin bir istiqamətini bu məsələyə yönəldir. Təsadüfi deyil ki, “İşçilərə layiqli əmək - qadınlara layiqli həyat”, “Gender və milli mentalitetimiz”, “Mənim həyatım - mənim haqqım”, “Erkən nikaha “yox!”, “Qızlar dünyanın ən gözəl, ən qiymətli varlığıdır” və digər bu kimi məsələlər Cəmilə xanımın önəm verdiyi və keçirilən tədbirlərdə xüsusi yer ayırdığı mövzulardır. Bu da bir daha Cəmilə Səttarovanın vətəndaşlıq-ziyalılıq mövqeyini açıqlayır. Cəmilə xanım Azərbaycan qadınlarının hamısını ziyalı görmək məqsədilə bütün fəaliyyətində bu mövqeyini məmnuniyyətlə onlarla paylaşır.

Deyilənlərə onu da əlavə etmək istərdik ki, Cəmilə Səttarova Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisidir. Ölkə Prezidenti tərəfindən “Tərəqqi” medalına layiq görülüb. Respublikanın fəxri mədəniyyət xadimidir. Onun əməyi dövlət tərəfindən bir çox yubiley medalı, fəxri fərman və diplomlarla qiymətləndirilib.

Cəmilə xanımın doğum günü aprel ayına təsadüf edir. Qadından isə yaşını soruşmazlar. Bununla belə deyək, Cəmilə xanım indi əsl müdriklik yaşındadır. Xasiyyətindəki, şəxsiyyətindəki müdriklik isə təkcə yaşla bağlı deyil. Bu, Cəmilə xanımın genindən, keçdiyi həyat yolundan, ağıl və dərrakəsindən qaynaqlanır, bütün digər müsbət keyfiyyətlərindən cəmlənir...

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***